# NİZAMİ GƏNCƏVİNİN "İSGƏNDƏRNAMƏ" MƏSNƏVİSİNDƏ TƏBİƏT ELEMENTLƏRİ (MOTİVLƏRİ)

**Aysel Feyzullayeva**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı*
*feyzullayeva82@list.ru*

Nizami Gəncəvi təqribən 1203-cü ildə, ömrünün sonlarına yaxın bütün ədəbi-estetik, ictimai-fəlsəfi görüşlərini yekunlaşdırdığı "İsgəndərnamə" poemasını yazmışdır. Əsər Nizami yaradıcılığının zirvəsidir, şairin uzun illər apardığı yaradıcılığını romantik bir şəkildə tamamlamış, gələcək nəsillərə vəsiyyət etmiş, gəldiyi son nəticə və qənaətlərini açıb bildirmişdi. Şairə görə, bu dastanın gücü ondadır ki, burada yalan yoxdur, ən uğurlu, xoş və sevimli bir dastandır.

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Qələmə aldığı əsərlərdən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl, qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Şərq təzkirələrinin məlumatına görə, 20 min beyt həcmində olan bu divandakı şeirlərdən çox az hissə dövrümüzədək gəlib çatmışdır. Lakin Nizami Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş poemadan ibarət "Xəmsə" müəllifi kimi daxil olmuşdur.

Nizami Gəncəvi əsərlərində təbiət elminə aid terminlərdən istifadə etməklə yüksək fikirlərini xüsusi sənətkarlıqla ifadə etmişdir. "İsgəndərnamə" poemasında şairin təbiət elmlərinə xüsusi yer verdiyi müxtəlif beytlərdə bitkilərdən, heyvanlardan və hətta kimya elminə dair çoxlu terminlərdən istifadə etməsi aydın görünür. Şair bütün əsərlərində qidalanmadan, cavanlıqdan, qocalıqdan, orqanizmdə gedən fizioloji dəyişkənliklərdən, sudan, təbii müalicə vasitələrindən, onların əhəmiyyəti və sirlərindən bəhs etmişdir. Bunlar Bertelsin sözlərilə desək, dahi Azərbaycan şairi Nizaminin heç də təkcə şair olmadığını, nə qədər zəngin dünyagörüşünə, biliyə sahib bir şəxsiyyət olduğunu sübut edir. Bütün bu məziyyətlərinə görə də "İsgəndərnamə" dastanı XII yüzillik Azərbaycan intibah şeiri və mədəniyyətinin ən böyük yazılı abidəsidir.

Əsərdən çıxardığımız bəzi terminlər siyahısını təqdim edirik**:** *vəba, ud ağacı, ipək-barama, mum, pambıq-bez, qamış-şəkər qamışı, kafur-kamfora, qan-xılt, iksir-eliksir, sədəf-inci, müşk, turunc, sinab-civə, üzərrik, torpaq, maddə, çürümə.*

Aşağıda əsərdən çıxardığımız terminlərin izahını veririk:

1. Vəba

Vəba **–** bakteriyanın səbəb olduğu nazik bağırsağın infeksion xəstəliyidir. Sərt və şiddətli ishal ilə müşahidə olunur. Günəş işığı bu törədiciyə məhvedici təsir göstərir. Xəstəlik ümumiyyətlə, nəcis bulaşmış su, ya da bu su ilə yuyulmuş qidalar vasitəsilə yayılır. Vəbanı asanlıqla müalicə etmək mümkündür, lakin müalicə edilməzsə, 50% nisbətində ölümlə nəticələnə bilər.

Beytdən göründüyü kimi, şair də Günəşin vəba bakteriyalarını məhv etdiyini göstərmişdir:

Havaya yağışdan nəm çöksə əgər,
Günəş o çirkləri silib məhv edər.
Payız yetişdikdə, bilir ki hər kəs
Daha lətif külək, incə meh əsməz.
Artıq rütubətdən törəyər vəba,
Tənəffüs çətindir belə havada. (s. 27)

2. Ud ağacı

Ud həm simli musiqi aləti, həm də Hindistanda bitən və yanarkən xoş qoxu verən ağac adıdır. Pis havalarda şahın əhvalını düzəltmək üçün ud bitkisi yandırarlarmış.

Bundan qurtarmaqçün qalayarlar od,
Tökərlər bu oda səndəl, gül və ud.
Təbimlə şaha ud yandıraram mən,
Daha başqa bir iş gəlməz əlimdən. (s. 27)

3. İpək-barama

İpəyi ipəkqurdu adlanan həşərat hörür. Sənayedə onun baramasından ipək saplar istehsal edilir. Bu baramanı ipəkqurdunun sürfəsi hazırlayır.

Sazda görərsə ipək bir teli,
Qırıb atmaq üçün uzanar əli.
İpək yetirməkdə iki cür qurd var,
Ziddir odla sutək həmişə onlar.
Biri baramanı toxuyur bir-bir,
Biri karvanla ipək məhv edir. (s. 27)

4. Kafur-kamfora

Ətirli maddələrə aid edilən kafur elm aləmində kamfora kimi tanınır. Təbiətdə kamfora ağacından (Yaponiya, İndoneziya və Çində bitir) alınır, eləcə də, süni yollarla kimyəvi maddələrdən emal edilir. Tibbdə müalicə vasitəsi kimi müxtəlif sinir xəstəlikləri, iltihab prosesləri zamanı, tənəffüs və qan dövranının gücləndirilməsi, ürək əzələsində maddələr mübadiləsinin qüvvətləndirilməsi məqsədilə kamfora yağından istifadə olunur.

Beytə nəzər salaq:

Müdrik bir qocaydı, nurlu, zəkalı,
Kafurtək ağ idi saçı, saqqalı.

Bu beytdə şair qocanın saqqalının rəngini kafur rənginə bənzətmişdir. Burada da yenə yüksək bənzətmədən istifadə olunmuşdur.

5. Sədəf-inci

Dəniz molyuskunun ifraz etdiyi qat molyuskun içinə düşən yad daşların, qumların üzərini sərt və parlaq maddə olan sədəf mineralı ilə örtür. Zaman keçdikcə sədəf mineralı qumu güclü bir daşa çevirir və buna da "inci" deyilir:

Sədəfin qabığı xeyli bərk olur,
Odur ki, içi də dürlə doludur.
Bərk daşlar içində gizlənər gövhər,
Gövhər çətinliklə əldə edilər. (s. 119)

6. Qan-xılt

Qan – orqanizmin birləşdirici toxumalarına aid olub, insanların və əksər heyvanların bədənlərində dövr edən və orqanizmdə müxtəlif funksiyaları yerinə yetirən qırmızı rəngli mayedir. Onun funksiyası hüceyrələrə və toxumalara oksigen və qida maddələrini, toxumalardan isə karbon qazını, maddələr mübadiləsinin son məhsullarını agciyərlərə və böyrəklərə daşımaqdır.

Ərəstu tapmışdı bir yeni dərman,
Xıltı ayırırdı onunla qandan.

O xılt ki, bədənə faydası vardı,
Qanı saflaşdırar və artırardı. (s. 52)

Şeirin bu bəndində şair xılt deyərkən qan plazmasını nəzərdə tutmuşdur. Plazma qanın maye hissəsinə deyilir. Onu ayırmaq üçün Ərəstunun hansısa bir dərman tapdığından söhbət gedir.